Türkiyədə iki beynəlxalq toplantı

Bu il aprel ayının ortalarında Türkiyənin Antalya və Çeşmə şəhərlərində iki böyük beynəlxalq tədbir keçirilmişdir.

Antalyada aprelin 7-dən 10-na qədər "Dialoq Avrasiya" platformunun (təşkilatının) 7-ci ümumi iclası oldu. İclas "KIV-in Avrasiya dialoqunda rolu" mövzusuna həsr edilmişdi.

"Dialoq Avrasiya" təşkilatı 2000-ci il mayın 5-də İstanbulda yazıçıların, alimlərin, ictimai xadimlərin, jurnalistlərin qurultayında təsis olunmuşdur. Təşkilatın məqsədi bu regionun ölkələrinin (əsasən Türkiyənin və keçmiş Sovet respublikalarının) ədəbi, elmi, mənəvi əlaqələrini möhkəmləndirmək, bu xalqların bir-birini daha yaxşı tanıması üçün fəaliyyət göstərmək, mədəniyyətlər, dinlər arasında dialoq qurmaqdır. Platforma türk və rus dillərində "DA.Dialoq Avrasiya" adlı jurnal nəşr edir. Təşkilatın təsisçiləri sırasında qırğız yazıçısı Çingiz Aytmatov, qazax şairi Oljas Süleymenov, türkiyəli tarixçi professor İlbər Ortaylı, moskvalı şərqşünas Rostislav Rıbakov, gürcüstanlı türkoloq Qüliya Alasaniya və başqaları vardı. Platformanın ilk sədri Azərbaycanın xalq yazıçısı Anar seçilmiş və bu vəzifəni dörd il müddətində icra etmişdir. 2004-cü ildə platformanın sədri vəzifəsinə növbəti iki il müddətinə İlbər Ortaylı seçilmiş. Anar isə o vaxtdan təşkilatın Onursal başqanı — Fəxri sədridir.

7-ci ümumi iclasda 14 ölkədən nümayəndələr iştirak edirdi. Azərbaycan Milli Məclisinin deputatları Rəbiyyət Aslanova, İsa Həbibbəyli, Fəttah Heydərov, alimlərimiz, yazıçılarımız, ictimai xadimlərimizx və jurnalistlərimiz də nümayəndələr sırasındaydı. Ümumi iclasın açılışında İlbər Ortaylı, Anar, Azərbaycan nümayəndələrindən baş nazirin müavini, xalq yazıçısı Elçin, Prezident Aparatının siyasi məsələlər üzrə müşaviri Əli Həsənov, "Dialoq Avrasiya" Azərbaycan şöbəsinin rəhbəri, millət vəkili, MEA-nın müxbir üzvü Nizami Cəfərov çıxış etdilər.

"Samanyolu" televiziyasında jurnalist Qulu Məhərrəmli Anar, Elçin, Əli Həsənov və Nizami Cəfərovla geniş müsahibə apardı.

Ümumi iclasın yekun bəyanatı qəbul edildi və Rusiya Elmlər Akademiyası Şərqşünaslıq İnstitutunun müdiri professor R.B.Rıbakov növbəti iki il müddətinə platformanın sədri seçildi.

İzmir Vilayətinin Çeşmə şəhərində aprelin 10-dan 15-dək "Türk Dünyası Birinci Beynəlxalq Mədəniyyət Qurultayı" keçirildi. İzmirin Egey Universitetinin Türk Dünyası Araşdırmalar İnstitutunun təşəbbüsüylə təşkil olunmuş qurultayda 35 ölkədən 300-dən artıq nümayəndə iştirak edirdi.

Qurultayın açılışında İnstitutun müdiri, professor, doktor Fikrət Türkmən, İzmir valisi, Egey Universitetinin rektoru və Azərbaycan Yazıçılar Birliyinin sədri Anar çıxış etdilər. Sonra qurultay işini seksiyalarda davam etdirdi. Azərbaycan alimləri — MEA-nın müxbir üzvləri Ağamusa Axundov, Tofiq Hacıyev, professorlar Kamal Abdulla, Cəlil Nağıyev, Firdun Cəlilov, Qüdrət İsmayılzadə, Rafiq İsmayılov və başqaları müxtəlif mövzularda məruzələr etdi. Qurultayın qapanış iclasında Anarın və Ağamusa Axundovun çıxışları oldu. Anar aprelin 13-də TRT INT və 14-də TRT-1 televiziya kanallarıyla da çıxış etdi.

Türk Dünyası Araşdırmalar İnstitutu başqa türk ədəbiyyatlarıyla bərabər Azərbaycan ədəbiyyatına da böyük maraq göstərir. İnstitutun dosenti Əli Erol ədəbiyyatımızın klassiki Abdulla Şaiq haqqında tədqiqat aparmış, onun haqqında ayrıca kitab nəşr etdirmişdir. Kitabda A.Şaiqin həyatından və sənətindən bəhs olunur, əsərlərindən seçmələr verilir. Egey Universitetinin məzunu Ayşə Atay Anarın yaradıcılığı haqqında fevral ayında elmi iş müdafiə etmişdir. Bu iş də kitab şəklində nəşrə hazırlanır. Universitetin "Türk dünyası incələmələri dərgisi"ndə Anar Los-Ancelosda (ABŞ) çıxan jurnaldan alınmış "Azərbaycandakı elifba reformunun tarixi üzərinə şəxsi düşüncələr" adlı essesi Türkiyə türkcəsinə çevrilərək dərc edilmişdir.

Martın 16-da "Cümhuriyyət" qəzetində Çingiz Aytmatovun Anar haqqında böyük məqaləsi çap olunmuşdur.

Dialoq Avrasiya platformu 7-ci ümumi iclasının açılışında Anarın çıxışı

(8 aprel, Antalya)

Sayın başqan, əziz dostum İlbər Ortaylı, sayın qatılımçılar, dəyərli media mənsubları!

Altı il öncə "Dialoq Avrasiya" platformunun təməli qoyularkən demişdir ki, İstanbulda Asiyayla Avropanı birləşdirən iki körpü var, qoy bizim bu təşkilatımız da iki qitəni birləşdirən üçüncü körpü olsun — mənəviyyat, mədəniyyət körpüsü. Bu aradan keçən illərdə gördük ki, doğrudan da belə oldu. Bir dostluq, anlaşma, barış körpüsü — mənəviyyat körpüsü qurduq.

Avrasiya anlayışı mürəkkəb və çoxyönlü anlayışdır. Coğrafi anlamda Avropanın bir ucu Pireney yarımadasında İspaniya və Portəqizdə, bir ucu Uraldadır. Asiya da Ural dağlarından Doğuda Yaponiyaya, Güneydə İndoneziyaya qədər uzanır. Amma biz bu anlayışı bir qədər dar çərçivədə ələ aldıq — əsasən iki dili — Türkiyə türkcəsini və rus dilini anlayan ölkələri əhatə etdik. Jurnalımız da məhz bu coğrafiyanın anlaşdığı iki dildə — türkcə və rusca çıxır. Bu toplantımızın medianın Dialoqda roluna həsr olunması çox əhəmiyyətli. Media XX və bəlkə də yeni başlamış XXI əsrlərin ən güclü silahıdır. Bu silah xoşgörülü, obyektiv, vicdanlı qəzetçilərin əlində olanda xeyirə, barışa xidmət edir. Burda toplaşan jurnalistlər və burda olmayan bir çoxları məhz bu məqsədlərlə çalışırlar.

Azərbaycanda basın (mətbuat) tam sərbəstdir. Rəhmətlik Prezidentimiz Heydər Əliyevin hakimiyyətdə olduğu dövrdə senzura aradan qaldırıldı. Mən də, burda iştirak edən yazar dostum Elçin də sovet dönəmində senzuradan az çəkməmişdik və bütün aydınlanmız kimi, biz də senzuranın ləğvini böyük sevinclə qarşıladıq.

Amma rəsmi senzuradan daha önəmli bir senzura da olmalıdır — yazı yazanın vicdanı və sorumluluğu — məsuliyyəti. Hər zaman ABŞ-da eşitdiyim və əbədilik yadımda qalan sözləri təkrar etməkdən yorulmuram. Amerika televiziyasında çıxış edənlardan biri deyirdi ki, bu ölkənin Doğu sahilində, Atlantik sahilində New Yorkda Azadlıq abidəsi ucalır. Bir abidə də Amerikanın Batı sahilində — Sakit okean sahilində ucaltmalıyıq — Məsuliyyət abidəsi. Çünki hər bir ölkə, hər millət, hər toplum — cəmiyyət yalnız azadlıqda sorumluluq — məsuliyyət arasında yaşaya bilər, azadlıqsız sorumluluq olmadığı kimi, məsuliyyətsiz hürriyyət də yalnız başıpozuqluq və anarxidir.

Dünyada və o cümlədən nə yazıq ki, bizim ölkələrdə — namuslu mətbuatdan başqa san mətbuat da var. Və bu san mətbuat zəhərli qələmlərin yuvasıdır. Sovet dönəmində, özəlliklə 20 və 30-cu illərdə "qırmızı terrordan" bəhs olunurdu. Bu gün terroru əbəs yerə islamla bağlamağa cəhd edirlər, "yaşıl terrordan" dəm vururlar. Amma bəlkə ən təhlükəli terror — "san terrordur" — san mətbuatın terroru, insanları böhtanlarla, iftiralarla, yalanlarla gündən-günə misqal-misqal zəhərləyən "sarı terror".

Bu terror ayrı-ayrı şəxsləri hədəfə alanda da son dərəcə ziyanlıdır, amma bütün bir ölkəyə, xalqa qarşı yönəldiləndə daha böyük fəlakətlərə bais olur. Çox-çox təəssüf ki, bizim xalqın ən ağır yarası olan Qarabağ məsələsi bir çox vaxtlarda dünya mediyasında məhz belə "san terror" — yəni faktların qəsdən və qərəzlə təhrif olunması vasitəsiylə ictimaiyyətə təqdim olunur. Ən yumşaq halda hər iki tərəfi suçlayırlar. Bizim suçumuz nədir? Biz ki, heç bir qonşu dövlətin bir qarış torpağını belə zəbt etməmişik, bizim torpaqlarımızın iyirmi faizi işğal edilib, bir milyon qaçqınımız var — yəni hər sakkiz nəfər azərbaycanlıdan biri ağır qaçqın həyatı sürür. Ən yaxşı halda bizi güzəştə dəvət edirlər. Biz nəyi güzəştə getməliyik? Hər iki tərəfin güzəştini isə təxminən belə təsəvvür edirlər — birisi qonşusunun dörd otaqlı mənzilinin iki otağını zəbt edib, sonra "güzəştə" gedərək bir otağı qaytırır, birini mənimsəyir. Belə güzəşt olar? Mən bir yazar kimi də, bir ata və baba kimi də savaşın əleyhinəyəm, heç vaxt istəmərəm ki, insanların qanı tökülsün — nə Azəri qanı, nə ermeni və hər hansı başqa xalqın qanı, amma Qarabağ bizimçün şərəf və vətən məsələsidir. Biz bu ağır sorunu övladlarımıza miras qoya bilmərik. Heç kəs — istər iqtidar, istər müxalifət olsun, — Qarabağın itirilməsiylə heç vaxt razılaşmaz və biz dədə-baba torpaqlarımızı nə yolla olur-olsun qaytaracağıq.

Mən ona da inanıram ya bəlkə inanmaq istəyirəm ki, gec-tez Ermənistanda da ayıq başlar söz sahibi olacaq və bu əsəssiz torpaq iddialarının yalnız Azərbaycana və Türkiyəyə deyil, Ermənistanın özünə də sağalmaz zərbə vurduğunu dərk edəcəklər. İşğal olunmuş torpaqlarımız azad olunandan sonra, Qarabağda yaşayan bütün insanların — azərilərin də, ermənilərin də hüququ və təhlükəsizliyi Azərbaycan Ana Yasası çərçivəsində təmin olunandan sonra, Ermənistan Türkiyəyə ərazi və "soyqırım" iddialarından əl çəkəndən sonra bu ölkə onu boğan təcrid hasarlarından çıxa bilər və bizim bu toplantılara da qatıla bilər. Nədən də qatılmasın? Ermənistan bu coğrafiyanın məmləkətidir və qonşularına düşmən gözüylə baxmasa, Avrasiya ailəsində yer tuta bilər. Ermənistanda ayıq başlar varsa, gec-tez qonşu torpaqlarına tamah salmağın, qonşulara nifrət və kin bəsləməyin axırı olmadığını anlayacaqlar.

Bu il YUNESKO-nun da elan etdiyi kimi, Mövlana ilidir. Böyük Cələaddin Rumi insanları dinindən, dilindən, irqindən asılı olmayaraq qardaşlığa, xoşgörüyə, dözümlülüyə — tolerantlığa, barışa çağırırdı. Biz bu mənəvi mirasa sahib çıxmalıyıq və sözümü başqa bir böyük şairin — Nazim Hikmətin misralarıyla bitirmək istəyirəm: "Yaşamaq bir ağac kibi tək və hürr və bir orman kibi kardeşcesine".

Türk Dünyası Birinci Beynəlxalq Mədəniyyət Qurultayının açılışında Anarın çıxışı

(10 aprel, Çeşmə)

Sayın vali, sayın rektor, əziz dostum Fikrət Türkmən bəy!

Azərbaycan Yazıçılar Birliyi adından bu möhtəşəm qurultayı salamlayıram. Səksən il bundan qabaq — 1926-cı ildə Bakıda tarixdə ilk dəfə Birinci Türkoloji Qurultay keçirildi. O zaman tək bağımsız (müstəqil) türk dövləti vardı — Türkiyə. İndi uluslararası tədbirlərdə altı müstəqil türk dövlətinin bayrağı dalğalanır, Türk dünyasının toplantılarında yeddinci bir bayrağı — Quzey Kıbrıs Türk Cümhuriyyətinin bayrağını da qürurla seyr edirik... Tarixin, taleyin hər bir xalqa qismət etdiyi ən böyük mutluluq, səadət — bağımsızlıq, müstəqillikdir. Nə yazıq ki, biz azərilər bu mutluluğun, bu bəxtiyarlığın dadını yetərincə çıxara bilmədik, çünki qəlbimizdə Qarabağ adlı böyük bir yara var. Kıbrıs sorunu tək Quzey Kıbrısın və Türkiyənin deyil, bütün Türk dünyasının sorunu olduğu kimi, Qarabağ dərdi də tək Azərbaycanın deyil, bütün Türk dünyasının dərdidir.

Bu qurultayımızın kültür, mədəniyyət qurultayı olması çox önəmlidir. Azərbaycanın və Türk dünyasının böyük şairi Hüseyn Cavid deyir ki, "Turana qılıncdan daha kəskin ulu qüvvət, — yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət!"

Doğrudan da bu gün Türk dünyasına siyasi və iqtisadi gəlişmə qədər, bəlkə onlardan da vacib olan mədəniyyətdir. Bəzən "türk xalqları tarix yazmayıblar, tarix yaradıblar" — deyirlər. Bəzən də "qılınc bizim əlimizdə olub, qələm düşmənlərimizin" — deyə öyünür və heyfsilənirik. Öz tariximizi özümüzün yazmağın zamanı gəldi və tarixi yaratmaq qədər tarixi yazılı mətnlərdə əks etmək də son dərəcə önəmlidir. Bu gün biz hamımızın, bütün türk xalqlarının bilim adamlarının, qələm, sahiblərinin qeyrətiylə Ortaq türk tarixi, Ortaq türk ədəbiyyatı tarixi, ortaq lüğətlər, terminlər yaratmalıyıq. Türk dünyasının ortaq informasiya bankı yaranmalıdır və hər iqtidarlarımizı dünyaya çatdırmağı bacarmalıyıq...

Hər bir türk xalqı tarixən formalaşmış öz dilini qoruyub saxlamaqla Türkiyə türkcəsi aramızda iletişim (ünsiyyət, rabitə, əlaqə) dili olmalıdır. Keçmiş sovet cümhuriyyətlərinin müstəqilliklərini elan etmələrindən on beş-on altı il keçir, hələ də bir-birimizlə rus dilində danışırıq. Mən qətiyyən rus dilinin əleyhinə deyiləm. Mənim mənəvi aləmimdə, müəyyən bilik və savad qazanmağımda bu dilin müstəsna rolu var. Amma mən istəyirəm ki, bir qazax bir azərbaycanlıyla, bir özbək tatarla yalnız rus dilində deyil, həm də Türkiyə türkcəsində danışınlar. Esperantosayağı süni ortaq dil yaratmaq xülyalanına uymaqdansa, türk xalqları içində ən zəngin dövlətçilik gələnəyinə (ənənəsinə) sahib olan bir ölkənin dili — Türkiyə türkcəsi Türk dünyasının iletişim (ünsiyyət) dili olmalıdır. (Bu təklifim qurultayın sonuc bildirgəsində — yekun bəyanatında öz əksini tapdı — A.)

Türk dünyasının mənəvi və mədəni həyatının inkişafı və zənginləşməsi yolunda bura toplaşan bilim adamlarına başarılar diləyirəm.



Türk Dünyası Kültür Qurultayının sonuc bildirgəsi

(Yekun bəyanatı)

Uluslararası türk dünyası Kültür Qurultayı aşağıda maddələr halında sıralanan qərarları həyata keçirilə bildiyi ölçüdə məqsədinə uluşmış (çatmış) olacaqdır:

1. Türk kültürü araşdırmalarının təşkilatlanaraq bütün ölkələrlə iş birliyi halında gəlişdirilməsi (inkişaf etdirilməsi).

2. Türk kültürünün tanıdılması üçün dünyanın bəlli bölgələrində Türk kültür mərkəzlərinin açılması, özəlliklə bağımsız Türk dövlətlərinə görev ediləsi (tövsiyə ediləsi).

3. Yüz illərdən bəri eğitim (təhsil), bilim, yayın və kültür dili olan Türk dilinin bu özəlliyini pozmadan davamı üçün, bütün türk dövlət və topluluqlarının gərəkli həssaslığı, bilinc, qərarlılıq və hərəkət içində olması. Türk dilinin yasaqlanması təşəbbüslərinin önünə keçilməsi (buna əngəl olunması).

4. Bundan 80 il öncə Birinci Bakı Türkoloji Qurultayında alınan latın əsaslı Ortaq türk əlifbası qərarının türk dili və Türk dünyasının gələcəyi üçün həyati əhəmiyyət daşması diqqətə alınaraq bu yoldakı çalışma və uyğulamaların tamamlanması, sonuca bağlanması (nəticəyə gəlinməsi).

5. Türk dil, ləhcə və şivələrinin hər birinin zəngin varlığının davamı yanında, Türk topluluqlarının hər səviyyədəki ilişgilərində (əlaqələrində) qullanılmaq (istifadə etmək) üzrə ortaq iletişim (ünsiyyət) dili olan Türkiyə türkcəsinin gəlişdirilməsi.

6. Türk dünyasının və insanlığın ortaq mirası olan tarix, kültür və sənət dəyərlərinin qorunması və gəlişdirilərək gələcək quşaqlara (nəsillərə) aktarılması (yetirilməsi) üçün gərəkli çalışmaların yapılması və tədbirlərin alınması.

7. Türk dünyası ortaq tarix bilincinin (elminin) gəlişdirilməsi üçün gərəkli tədbirlərin alınması.

8. Türkdük bilimi araşdırmalarında çağdaş metod və qaynaqların qullanması yanında, Türk dünyasının kendi (öz) ehtiyaclarına cavab verə biləcək yeni orijinal baxış və metodların da gəlişdirilməsi.

9. Təklif edilən bütün bu görüşlərin həyata keçirilə bilməsi üçün Türk dövlət və topluluqları yönəltcilərinin (idarəçilərinin) görevə çağırılması (qarşılarına vəzifə qoyulması).

Birinci Uluslararası Türk Dünyası Kültür Qurultayı deleqələri (nümayəndələri) yuxarıdakı xüsuslarını dünya kamu oyuna (ictimaiyyətinə) duyurulmasına oy (səs) birliyiylə qərar vermişlər.